# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 may tarixli 202 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Aşağıdakı şəxslərin peşə hazırlığı ödənişsiz təşkil edilir:

2.5.1. işsiz şəxslərin;

2.5.2. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.1.3-cü maddəsində nəzərdə tutulan mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslərin;

2.5.3. il ərzində müvafiq inzibati ərazi vahidi üzrə peşə hazırlığına cəlb olunan işsiz şəxslərin 20 faizindən çox olmamaq şərtilə işaxtaran şəxslərin.";

2.2. 2.6-cı bəndə "işsiz" sözündən sonra ", "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.1.3-cü maddəsində nəzərdə tutulan

mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran" sözləri əlavə edilsin;

2.3. 2.8-ci bənddə "İşaxtaranlara" sözü "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 20.2.2-ci maddəsi nəzərə alınmaqla işaxtaranlara" sözləri ilə əvəz edilsin;

2.4. 2.9-cu bəndə "nəzərə alınmaqla" sözlərindən əvvəl "və "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 20.2.2-ci və 20.2.3-cü maddələri" sözləri əlavə edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "6" iyun 2022-ci il

№ 130